## Uşaqlarınızın sağlamlığına biganə olmayın!

Dispanserizasiyanın uğurla aparılmasında valideynlərin böyük rolu var. Onlar uşaqların xüsusi müayinələrdən keçirilməsində fəal iştirak etməlidirlər. Dispanserizasiyanın aparılması işinə mane olan, səhlənkarlıq edən, onu qəsdən ləngidən valideynlər, tibb işçiləri və ya digər şəxslər İnzibati Xətalar Məcəlləsinin 65.2.1 və 65.2.2-ci maddələri ilə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## Uşaqlarınızı icbari dispanserizasiyadan keçirməyi unutmayın!

Mütəmadi dispanser müayinələr uşaqlarda təhlükəli xəstəliklərin inkişafının qarşısının alınması və ya onların erkən mərhələdə müəyyən edilməsi və effektiv müalicəsinə imkan verir.



İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Buklet Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli 150 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 5.1-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

# UŞAQLARIN İCBARİ DİSPANSERİZASİYASI



*Uşaqların sağlamlığını birgə düşünək!*

## Dispanserizasiyanın məqsədi

Uşaqların icbari dispanserizasiyasının aparılmasında əsas məqsəd uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanları məhdudluğunun və ölümün səviyyəsinin daha da azaldılması, uşaqların xəstəliklərdən qorunmasıdır.



**BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası, Maddə 24 (çıxarış):**

**1. Dövlətlər uşağın ən mükəmməl səhiyyə sistemi xidmətlərindən və xəstəliklərin müalicəsi və sağlamlığın bərpası vasitələrindən istifadə etmək hüququnu təsdiq edirlər.**
**2. Dövlətlər həmin hüququn tam həyata keçirilməsinə çalışır və lazımi tədbirlər görürlər ki: Körpələr və uşaqlar arasında ölüm hallarının səviyyəsi aşağı düşsün, bütün uşaqlara lazımi tibbi yardım göstərilməsi və onların sağlamlığının mühafizəsi təmin edilsin.**

Uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamı kimi 2014-cü ildən etibarən ölkəmizdə uşaqlar icbari dispanserizasiyaya cəlb edilirlər.

Dispanserizasiya uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsini özündə ehtiva edən "Uşaqların icbari dispanserizasiyası haqqında" 5 mart 2013-cü il tarixli Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq aparılır.

## Dispanser qeydiyyatı

Aşkar olunan xəstə və yüksək xəstələnmə riski olan uşaqların tibbi-sosial müəssisələrdə yerləşdirilməsi, ehtiyac olan hallarda reabilitasiya tədbirlərinin və sanator-kurort müalicəsinin həyata keçirilməsi işləri təmin edilməlidir. Dispanser qeydiyyatına alınmış uşaqlar üçün müşahidə kartları açılmalı və onlar arasında mövcud təlimata uyğun müalicə-profilaktika tədbirləri həyata keçirilməlidir.

***Uşaqlarınızın dispanserizasiyadan keçirilməsini gecikdirməyin!***

## Dispanserizasiya zamanı

Dispanserizasiya zamanı uşaqlar (0-18 yaş) yaşadıqları ərazi üzrə bağçalarda, orta məktəblərdə, habelə qeydiyyatda olduqları poliklinikalarda həkim-pediatr, həkim-otorinolarinqoloq, həkim-oftalmoloq, həkim-stomatoloqdan ibarət həkim briqadaları tərəfindən ilkin müayinədən keçirilirlər.

## Müayinələr zamanı

Həkim briqadaları tərəfindən aparılan ilkin müayinələr zamanı uşaqların antropometrik ölçüləri, görmə qabiliyyəti, dişlərin, əsnəyin və onurğanın vəziyyəti qiymətləndirilir. Müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların ixtisaslı həkim-mütəxəssislər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və s.) tərəfindən konsultasiyası, lazım olduqda isə stasionar müalicəsi təşkil edilir.

Valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, əlilliyi olan və qapalı müəssisələrdə (məsələn, Uşaq Tərbiyə Müəssisəsi) tərbiyə alan uşaqların dispanserizasiyası da eyni qaydada həmin uşaqların yaşadıqları və ya təhsil-tərbiyə aldıqları ünvanlar üzrə təmin edilir.